# Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə edilib



**Özbəkistan Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Daşkənd şəhərində İsrail Knessetinin Sədri Amir Ohana ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə edilib. Xüsusilə iqtisadi-ticari, enerji sahəsində geniş əməkdaşlığın mövcud olduğu diqqətə çatdırılıb. İkitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin müstəsna rolu xüsusilə qeyd olunub.

Söhbət zamanı qanunverici orqanlar arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin inkişafına töhfələri barədə də fikirlər səsləndirilib. Qarşılıqlı səfərlərin, aparılan səmərəli dialoqun əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyi bildirilib.

Milli Məclisin spikeri Sahibə Qafarova görüşdə ölkəmizdə mövcud olan və möhkəm əsaslara malik tolerantlıq və multikulturalizm ənənələri haqqında məlumat verib. Onun sözlərinə görə, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələri də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşayırlar. Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətləri mövcuddur.

Həmçinin İsraildəki Azərbaycan diasporunun, İsraildə yaşayan yəhudiəsilli soydaşlarımızın da ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfə verdikləri diqqətə çatdırılıb.

İsrail Knessetinin Sədri sülh, birgəyaşayış dəyərlərini qoruyub inkişaf etdirdiyinə görə Azərbaycan hökumətinə təşəkkür edib. O, İsrail ilə Azərbaycan arasında mövcud əlaqələrdən məmnunluğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.-2025.- 8 aprel (№ 67).- S.4.